

# Zəfər yolunu açmaq üçün şəhid olan qəhrəman

## *İlk pilot şəhid, Dövlət Sərhəd Xidmətinin əməkdaşı, mayor Abbas Qasımov*

*(Əvvəli ötən sayımızda)*

Rəhbər dedi: - Həmvətənlərim, yaxşı baxın, bizim gələcəyimiz belə etibarlı, inamlı, mərd və cəsur əllərdə olacaq, eşq olsun belə övladlar yetirən xalqa!

Rəhbərin sözü tamamlanan kimi yenə insan seli onun sözünü təkrarladı və səs dalğası Xəzərin dalğalarını təlatümə gətirdi.

O an Abbas üçün unudulmaz an idi. Abbas bu anı özünün də son anına qədər unutmayacaqdı. O andan bəri Abbas özünü vətən, torpaq, azadlıq yoluna həsr etdi. İstədi ki, Azadlıq yolunun ayrıcı Zəfər yolu olsun!

İndi Abbasın həyat kitabının həqiqət olan bu səhifəsi yalnız bir şəkildə yaşayır...

5 il Vətən, torpaq həsrəti ilə yaşadı Qasımovlar ailəsi... Elə bil 5 il onları həbsdə saxlayırdılar... Hələ Abbası demirəm... O, heç də özünü ağlı təzə kəsməyə başlamış uşaq kimi aparmırdı. O, elə bil əvvəlcədən bilirdi ki, burada doğulmayıb, öz doğulduğu torpağı, doğma yurdu var, oradan qovulub... Bu dərdlə böyüyürdü O... Məktəb yaşına çatırdı. Abbas tədricən hiss edirdi ki, atası heç özündə deyil. Özünü yaxşı göstərməyə çalışsa da, ürəyi yaman ağrıyır. Atasının bu halına o da yanırdı. Gününü onunla keçirməyə çalışırdı, ancaq yenə də hiss edirdi ki, atasının canı ağrıyır. Heç nəyi yox idi onun. Ancaq sağalmaz bir xəstəliyi var idi. Yurd. Torpaq. Ev. Vətən həsrəti.

Abbas ümid istəyirdi, ancaq bu ümid atasında yox idi. Bir neçə dəfə məktəbə gedəcəyindən danışırdı, atasına bununla təskinlik vermək istəyirdi. Abbasın məktəbə getməsi, həqiqətən, Rza kişi üçün təskinlik idi. Bilirdi ki, Abbas məktəbə gedənə qədər yaşayacaq. Dərdlə, əzabla da olsa, yaşamağa çalışacaq...

Abbas məktəbə gedən gün heç sevincli deyildi. Çünki atasını görməmişdi. Heç məktəbə də atası aparmamışdı onu. Bu barədə əvvəldən də heç nə deməmişdi. Ona görə də nə qədər onu sevindirməyə çalışsalar da, o sevinmirdi. Anası Abbasa baxıb daxilində köks ötürürdü. Çünki uşağı gerçəkləri bilmirdi. Hamı sevinərkən Abbas qəm içində idi. Tək diləyi dərs bitəndən sonra atasını görməsi, atasının onu qucaqlaması idi.

Olmadı... Fələk balaca Abbası aldatdı... Abbas dərsdən qayıdanda atasının cismini yox, tabutunu qucaqlamalı oldu... Abbasın xəyalları qaranlığın dibinə qədər enmişdi. Həyatının ən pis anı idi bu an. Atası uzun sürən həsrət xəstəliyindən, ümidsizlik xəstəliyindən rəhmətə getmişdi..

Bundan sonra, Abbasın tək diləyi bu anı bir də yaşamamaq idi. Anasını da belə itirmək istəmirdi...

Həmişə sabaha inanan, yurduna qayıtmaq ümidi ilə, həsrətə son vermək ümidi ilə səbrlə dözüb gözləyən Abbas öz yurdunun tarixin tamam-kamal bilmək üçün can atdı məktəbə. Anası da ona demişdi ki, atanın tək vəsiyyəti sənin böyüyüb layiqli vətən övladı olmağındır.

Abbas 1993-2003-cü ildə F.İsgəndərov adına Binəqədi rayon 157 nömrəli tam orta məktəbdə təhsil alır. Bu illərdə o, qüsursuz xidmət edən bir əsgər kimi məktəbdə nizam-intizamlı olur və dərslərini mükəmməl oxuyurdu. Anası deyir ki, o, heç vaxt istəməzdi ki, onun barəsində kimsə tərəfindən mənə şikayət gəlsin. Abbas bunu öz mənliyinə sığışdırmazdı. Anası onun üçün əzəldən bəri həm ana, həm də ata olmuşdu. Anasının sözləri Abbas üçün atasının vəsiyyəti idi, o, bunu çox yaxşı bilirdi. Nümunəvi şagird kimi həmişə sinif yoldaşlarından seçilirdi. Hər dəfə tarix dərsini oxuduqca Abbasın ürəyi elə bil yanar odda bişirdi. Bu bişən ürək gələcəkdə tarixin qisasını alan bir cəngavər ürəyi olmalı idi, gələcəkdə qılınc olmaq üçün oda verilən dağ çəkdirilən bir dəmir kimi... Onun dəmirçi kimi sahibi elə bu kitablar idi. Bu kitablar ona öz yurdunu, öz tarixini, Azərbaycanın əzəldən bəri nə zülmlər çəkdiyini öyrədirdi. Abbas bəzən oxuduqlarına dözə bilmir, ürəyini sıxıb göz yaşı çıxarırdı... Əl pəncəsi yumruq olana kimi sıxıldıqca sıxılırdı. Ancaq hələ də qisas vaxtı gəlib yetişməmişdi. Yurdumuzdan, yuvamızdan ayrı idik... Abbas istəyirdi ki, qisas günündə qisasçı kimi o da bir pay sahibi olsun. Çəkilən hər qisasa çatdıran yolda onun da qabar-qabar olan əlinin izinin olmasını istəyirdi o... Abbas qisas istəyirdi. Ürəyini sıxıb çıxartdığı sözlər bunu söyləyirdi.

Elə ona görə də Abbas daha dözə bilmədi və orta məktəbi bitirən kimi, 2003-cü ildə gələcək həyat yolu kimi hərbi məktəbi seçdi. O vaxtkı Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına qəbul olur. Abbas yurd həsrəti ilə çırpınan ürəyinin səsini dinləyərək bu addımı atmışdı. Ancaq özünü bu oda atdığı kimi bu oddan çıxa bilməyəcəyini də bilən Abbas yenə də həyatının ən düz addımını atdığına əmin idi. Həqiqətən də, o, düz addım atmışdı. Elə atasının vəsiyyətlərindən ən ümdəsi də bu idi. Rza kişi ömrünün son anlarında son ümidini Abbasa bağlamışdı. Ürəyinə dammışdı ki, bu qisas anı Abbasa da çatacaq. Abbası qisasa yaxınlaşdıran yolda inamla irəliləyəcəkdi və irəliləyirdi. Orta məktəbdə necə oxuyurdusa, ali məktəbdə də elə oxuyurdu. Bir səhvi belə olmadan orta məktəbdəki tendensiyasını davam etdirirdi. Onun fikrincə, bir səhv məfkurəyə xəyanət idi. O, ali məktəbdə də yoldaşları arasında nümunəvi idi.

2007-ci ildə Akademiyanı böyük müvəffəqiyyətlə bitirən Abbas həyatının ən xoş günlərini yaşayırdı. Çünki bundan sonra yol ancaq qisasa doğru uzanırdı. Qisasa qovuşduran, çatdıran yol. Abbas artıq bu yolun yolçusu idi! O, artıq şərəfli bir zabit, hərbi qulluqçu idi! Bundan sonrası ancaq bu yolda yerimək, o anın gələcəyi üçün dua etmək və o anı daha da yaxınlaşdırmaq idi!

Abbas həmin illərdə öz istəyi ilə Sərhəd Qoşunlarında mərkəzdən ucqar yerlərdə xidmətinə başladı. Qüsursuz xidməti ilk ilində dəyərləndirildi. 2008-ci ildə Abbas Qasımov ilk medalını aldı. Bu, Abbas üçün bir şey ifadə etmirdi. Anasının xatirələrində Abbas belə yaşayır; O, deyirdi ki, mənə medal lazım deyil, ailəmə, Vətənimə yaxşı xidmət, qulluq edim, bu, mənə bəsdir.

Xidmət etdiyi illər ərzində o, bir məqsəd, bir amal uğrunda irəliləyir, çalışır, təcrübə qazanırdı. Qarabağ amalı! Torpaq həsrətinə son vermək adlı bir amal! Bu amal müqəddəs idi! Bu amal yolunda o, həmişə sabaha inanırdı. İnamla etdiyi xidmətində hər şeyə diqqətlə yanaşırdı. İş yoldaşlarına qarşı da çox diqqətli, həssas və səmimi idi. Onları bir dost bilirdi. İnanırdı ki, bir gün o gün gələcək və onlar bir olub bir Vətən oğlu kimi düşmən üzərinə şığıyacaqlar.

Həmin dostlardan biri də baş leytenant Xalid Həsən oğlu Gözəlov idi. Onlar bir-birlərinə isinişmişdilər. Allah bu iki ailəcanlı, böyüyünə-kiçiyinə qayğı, hörmətlə yanaşan, işində qüsursuz olan, Vətəni üçün, amalı üçün addımlayan hərbçiləri elə bil bir yaratmışdı. Xalid və Abbasın dostluğu əbədi idi. Bu sonrakı illərdə dostluq yox, qardaşlıq oldu. Abbasın ailəsi Xalidin ailəsini, Xalidin ailəsi Abbasın ailəsini yaxından tanıdı.

2020-ci il... Bu il min illiyin yaddaşından silinməyəcəkdi... Bu il Qisas ili, Zəfər ili, Şəhidlik ili olacaqdı... Ancaq hələ ki, ürəyimizi sıxmaqda idi... Çətin, ağır günlərdə Qasımovlar ailəsinin tək sevinci Abbas idi. O, 26 iyun 2020-ci ildə qüsursuz xidmətinə görə 2-ci dərəcəli medal almışdı. Bu xəbəri eşidən ailə çox sevindi. Abbas üçün ifadəsiz olan bu uğur ailəsi üçün də elə idi. 3 ay sonra Abbasın böyük oğlu, axır ki, məktəb yollarında yeriyəcəkdi. Abbas buna görə çox sevinirdi. Çox istəyərdi ki, günlər tez keçsin, oğlunun məktəbli olmasını görsün, sevinsin... Ancaq günlər tez keçmirdi, elə bununla bir yerdə işlər də artırdı. Ailə günlərlə Abbası görmürdü. Lakin bu dəfə Abbas yeni medal sevinci ilə ailəsinin yanında oldu. Şənlik çox sevinclə keçdi. Bütün dərdlər, kədərlər bir anlıq unuduldu. Abbas öz ailəsini sevindirdiyinə görə sevinirdi. Hər dəfə də deyirdi, bu medal onun üçün əhəmiyyət kəsb etmirdi. Bu, sadəcə, uğur idi. Qələbəyə aparan uğur.

Son vaxtlar ailə üzvləri Abbası bu qədər sevincli görməmişdi. Həm də ailə üzvləri son günlərdə Abbası heç bu qədər də görməmişdi. İşlər çox sürətli də getmirdi, ancaq üst-üstə yığılırdı. Uşaqlar gözlərini Abbasdan çəkə bilmirdilər. Elə bil ilk dəfə görmüşdülər onu. Bəlkə, son dəfə görürdülər? Bu sualın cavabını zalım fələk verdi...

Bizi isti yay günündə qisas alovuna atan, bu alovda bişirən Tovuz döyüşlərindən sonra hərbçilərin, xüsusilə də, Abbasın işi çətinləşirdi. İşin çoxluğundan ailəyə vaxt ayırmaq olmurdu. Abbas Tovuz döyüşündən sonra yaman dəyişmişdi. O, əvvəlki kimi dözümlü Abbas deyildi. Heç nəyə səbir edə bilmirdi. İllərlə gözləmişdi, daha gözləyə bilmirdi. Hər gün Allaha dua edirdi ki, o qisas günü tez gəlsin. Səbrsizlik səbri də, ümidi də boğurdu. Daxilində səbrlə dözümsüzlüyün arasında müharibə gedirdi. Bu müharibənin nəticəsində gerçək müharibənin vaxtı gələcəkdi, gəlməliydi...

*(Davamı var)*



*Sevindik NƏSİBOĞLU*